# Azərbaycan gəncləri dövlətin qayğısını hər zaman hiss edirlər

***Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilib... Bu sözləri Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "Xalq qəzeti"nə açıqlamasında deyib.***



Milli Məclisin deputatı bildirib ki, bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyət baxımdan yeni mərhələyə daxil olub: "Ulu öndərin gənclər siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev gənclərə xüsusi diqqət və qayğı göstərir. Qətiyyətlə deyə bilərik ki, ölkə gəncləri Prezident İlham Əliyevin uğurla yürütdüyü daxili və xarici kursu dəstəkləyir, bu siyasətin icrasında daim onun yanındadırlar. Azərbaycan gəncləri fəaliyyətlərində dövlətin qayğısını hər zaman hiss ediblər. Gənclər nailiyyətləri ilə onlara göstərilən etimadı doğrultmağa çalışıblar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər, bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini təqdirəlayiq hesab edirlər".

Ceyhun Məmmədovun sözlərinə görə, hazırkı dövrdə Azərbaycanda gənc kadrların irəli çəkilməsi üçün dövlətimiz ciddi addımlar atıb: "Hesab edirəm ki, son illər bu istiqamətdə önəmli layihələr gerçəkləşdirilib. Cənab Prezidentin fərmanı ilə Gənclər Fondu yaradılıb. Fond fəal şəkildə dövlət siyasətini həyata keçirir. Demək olar ki, ölkəmizin əksər şəhər və rayonlarında gənclər mərkəzləri yaradılıb. Burada müxtəlif kurslar, dərnəklər fəaliyyət göstərir. Həmçinin gənclərin iş imkanlarının formalaşdırılması üçün zəruri addımlar atılıb. Təhsil Nazirliyinin, eləcə də ayrı-ayrı qurumların təşəbbüsü ilə gənclərimiz xaricdə təhsil almağa göndərilib. Bir sıra qurumların rəhbərliyi gənclərə verilib. Bununla belə, deyə bilərik ki, bu gün Azərbaycanda cənab Prezident və Birinci vitse-prezidentin gənclərə çox böyük qayğısı var. Ölkəmizdə bir çox gənclər təşkilatı var ki, dövlətin diqqəti ilə tam əhatə olunub və bu yöndə dövlət siyasətini uğurla davam etdirir".

***Şahxanım ƏLİZADƏ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 3 fevral.- S.10.